***ƏLİYEV T.R.***

# QARABAĞIN ARXEOLOJİ ABİDƏLƏRİ
## (Ən qədim dövrdən erkən Əhəməni dövrünə qədər)

Azərbaycanın maddi mədəniyyət abidələri arasında Qarabağın arxeoloji abidələri xüsusi yer tutur. Son vaxtlar əsassız olaraq erməni təbliğatının təsiri altında bu abidələrin kifayət qədər öyrənilməməsi haqqında fikirlər səslənmişdir. Halbuki bu fikirlərin arxasında erməni «tədqiqatçılarının» məkrli məqsədi gizlənmişdir: istər əcnəbi, o cümlədən rus, istərsə də Azərbaycan alimlərinin yüz ildən artıq bir müddətdə apardıqları tədqiqatlara kölgə salmaq, beynəlxalq elmi mərkəzlər tərəfindən Azərbaycanın mədəni irsi kimi qəbul olunmuş Qarabağ abidələrini yeni müstəvidə elmi ictimaiyyətə çatdırmaq.

Qarabağın arxeoloji abidələri haqqında onlarla monoqrafiya, yüzlərlə elmi məqalə, beş doktorluq və bir neçə namizədlik dissertasiyası yazılmışdır. Sovet hakimiyyəti dövründə – XX əsrin 80-ci illərinin əvvəllərindən başlayaraq SSRİ EA Arxeologiya institutu tərəfindən hazırlanan və nəşr etdirilən «SSRİ arxeologiyası» adlı fundamental çoxcildliyin bir neçə cildi əsasən Azərbaycanın Qarabağ bölgəsində aparılan arxeoloji tədqiqatların nəticələrinə söykənmişdir (34; 36). Tərkibində üç dəstənin fəaliyyət göstərdiyi Mil – Qarabağ arxeoloji ekspedisiyası qeyd olunan bölgədə uzun illər ardıcıl tədqiqat işləri aparmışdır. Bu qısa xülasədən göründüyü kimi, Qarabağ abidələri və onların öyrənilmə tarixi xüsusi bir monoqrafik tədqiqatın mövzusudur. Hazırkı məqalədə isə məqsəd Qarabağın daha çox diqqəti gəlb etmiş abidələrində aparılan elmi axtarışların nəticələrindən bəhs etməkdir.

Qarabağda arxeoloji tədqiqatlar XIX əsrin ikinci yarısından başlamış, XX əsrin ikinci yarısında isə intensiv xarakter almışdır. Elmi axtarışlar nəticəsində müəyyənləşdirilmişdir ki, bu bölgə insanın təşəkkül tapdığı ilk dövrlərdən son orta əsrlərədək olan dövrü əhatə edən arxeoloji abidələrlə zəngin olub qədim sivilizasiya mərkəzlərindən biridir. Ulu sakinlərin gündəlik məişət və təsərrüfat həyatını əks etdirən maddi tapıntılar bölgədə formalaşan Quruçay-Köndələnçay, Neolit-Eneolit, Kür-Araz və Xocalı-Gədəbəy arxeoloji mədəniyyətləri arasındakı varisliyin təzahürüdür.

Qarabağ ərazisində paleolit dövrünə aid ilk tapıntıları hələ 1954-cü ildə A.A.İyessen qeydə almışdır. O, Xocalı kəndə ətrafında və İlisu çayının quru yatağında obsidian və serdolikdən əmək alətlərinə rast gəlmidir (26, 10, 11).

Qədim insan məskəni kimi Qarabağın mağara düşərgələrindən elm aləmində daha çox əks-səda doğuranı Azıx mağarasıdır (15; 16). Mağara Füzuli şəhərinin təxminən 15 kilometrliyində, Quruçay vadisinin Tuğ kəndi çökəkliyində, dəniz səviyyəsindən 900 metr yüksəklikdəki qalın və nəhəng qayaların altında yerləşir. Cənubi Qafqazın karst boşluqları arasında ən möhtəşəmi olan bu mağaranın uzunluğu 200 metrdən çox, ümumi sahəsi isə 1250 kvadrat metrə yaxındır. Mağara anfildə şəkilli səkkiz zaldan, şimal və cənub qalereyalarından ibarətdir.

Azıx mağarasında qazıntılar görkəmli Azərbaycan alimi Məmmədəli Hüseynovun rəhbərlik etdiyi Paleolit arxeoloji ekspedisiyası tərəfindən 1960-cı ildə başlanmış və 25 ilə qədər davam etmişdir. M.Hüseynovla yanaşı, abidənin kompleks tədqiqi ilə D.Hacıyev, Ə.Məmmədov, V.Veliçko, Ə.Cəfərov və başqa alimlər də məşğul ol-

muşlar (2, 24). Başqa sözlə, abidənin öyrənilməsində arxeoloqlarla birgə, paleozooloqlar, paleogeoloqlar, paleogeomorfoloqlar, paleontoloqlar və başqa elm sahələrinin mütəxəssisləri də yaxından iştirak etmişlər. Tədqiqatların gedişində müəyyən olunmuşdur ki, Azıx mağara tipli ən qədim insan düşərgəsi olub aşağı antropogen dövrünə aid çoxtəbəqəli (burada qalınlığı 14 metrə çatan 10 təbəqə aşkar edilmişdir) abidədir. Düşərgənin çöküntülərində qədim paleolitin bütün dövrlərini ardıcıl əks etdirən təbəqələr qeydə alınmışdır. Mağara düşərgələri arasında stratiqrafik cəhətdən belə ardıcıllığa hələlik dünyanın heç bir guşəsində rast gəlinməmişdir (1, 61). Köhnə dünyanın iki böyük qitəsinin kəsişməsində yerləşən bu abidənin daha dərin qatlarından (VII-X təbəqələr) tapılan çaydaşları və qəlpələr üzərində mütəxəssislər şelə qədərki dövrün izlərinə aşkara çıxarmışlar. Əsasən vurub qoparma üsulu ilə çox kobud hazırlanmış bu alətlər çaydaşı alətləri mədəniyyətinə məxsusdur.

Azıx sakinlərinin həyatında mağaranın yaxınlığından axan Quruçayın mühüm rolu olmuşdur. Qədim insanlar əmək alətləri hazırlamaq üçün daşları məhz Quruçaydan toplayıb mağaraya gətirmişlər. Eyni zamanda Azıx sakinləri Quruçay dərəsində ovçuluqla da məşğul olmuşlar. Ona görə də Azıx mağarasının VII-X təbəqələrindən aşkar olunmuş yeni arxeoloji mədəniyyətin maddi mədəniyyət qalıqlarına Quruçayın adı verilmişdir (9, 7).

Quruçay mədəniyyətinin əmək alətləri Şərqi Afrikanın Olduvay mədəniyyəti kompleksi ilə yaxınlıq təşkil edir. Lakin əmək alətlərinin tipologiyasındakı fərqli cəhətlər göstərir ki, Azıxın aşağı təbəqə materialları əsasında yeni arxeoloji mədəniyyət təşəkkül tapmışdır. Aparılan kompleks elmi tədqiqatlar nəticəsində Quruçay mədəniyyətinin 1,2 milyon il bundan əvvəl başlayıb 700 min il əvvəl sona çatması müəyyən edilmişdir (2, 26; 3, 29,30; 1, 62).

Azıx mağarasında aşel təbəqəsinin qalınlığı 6 metrdən artıqdır. Burada aşelin bütün mərhələləri (erkən, orta və son aşel) izlənilər (34, 54). Bütövlükdə aşel mədəniyyəti 700-100 min illər arasında mövcud olmuşdur. Qədim aşel təbəqəsindən tapılmış əmək alətləri arasında əsas yeri çapma alətləri, əl çapacaqları və qaşov tipli alətlər tutur. Əl çapacaqlarının meydana çıxması ibtidai insanların həyatında mühüm rol oynamış, ovçuluq təsərrüfatını daha da inkişaf etdirməyə imkan yaratmışdır. Erkən aşel dövründə – təxminən 700-600 min il əvvəl süni oldla tanışlıq Azıx sakinlərinin həyatında mühüm hadisə olmuşdur. Mağaradakı ocaq izləri bunu bir daha təsdiq edir (15, 44).

Azıxın orta aşel təbəqəsi təkcə əmək alətləri ilə deyil, həm də ibtidai insanın mənəvi inkişafı haqqında danışmağa imkan verən materiallarla da zəngindir. Azıx mağarasının şöhrətini respublikamızın hüdudlarından kənara çıxaran və bütün dünyaya yayan məşhur tapıntı – qadın çənəsinin qalığı da yuxarıda qeyd edilən təbəqədən (V) əldə olunmuşdur. 1968-ci ildə tapılan bu çənə qalığının təxminən 350-400 min il yaşı vardır (15, 41-44). Elmi ədəbiyyatda həmin fraqmentin sahibi olan 18-22 yaşlı qadın azıxantrop (yəni Azıx adamı) adını almışdır. Sanki bu nadir tapıntı elə həmin ildə dünyanın başqa bir guşəsindən – Fransanın cənubunda yerləşən Araqo mağarasının aşel təbəqəsindən aşkar edilmiş ilk neandertala aid alt çənə qalığına əks səda vermişdir (12, 13).

Azıx mağarasında qaya divarları arasındakı xəlvəti yerdə gizlədilmiş ayı kəllələrinin aşkar edilməsi, belə kəllələrdən birinin üzərində çarpaz çəkilmiş xətlərə – cızıqlara rast gəlinməsi, tikili qalığına təsadüf edilməsi də tədqiqatçıların böyük ma-

rağına səbəb olmuşdur. Onlardan birincisi qədim Azıx sakinlərinin totemik baxışları, dini təsəvvürləri, ikincisi ibtidai say haqqında təsəvvürləri ilə izah olunur. Üçüncüsü isə Azərbaycanda tikinti sənətinin qədimliyini göstərir (14, 10; 15, 51, 52).

Azıx mağarasının aşel təbəqəsindən 35, mustye təbəqəsindən isə 10 növ fauna qalığına rast gəlinmişdir. Mamont, bizon, nəhəng maral, adi maral, kaftar, ayı və başqa heyvanların sümükləri yurdumuzun uzaq keçmişdəki zəngin faunasından xəbər verir. Adları çəkilən tapıntıların elmi əhəmiyyəti qədim insanın yaşadığı ekoloji mühiti, onu əhatə edən biosferi, məşğuliyyətini öyrənmək baxımından əhəmiyyətlidir (12, 13).

Azıxın IV təbəqəsindən maddi mədəniyyət qalıqları tapılmamışdır. Bu, qədim Azıx sakinlərinin düşərgəni müvəqqəti tərk etdiklərini göstərir. Lakin mustye dövrünün əvvəllərində qədim sakinlər yenidən bu düşərgədə məskunlaşmışlar (1, 65).

Azıx mağarasında aparılan tədqiqatlar haqqında Azərbaycan alimlərinin əldə etdikləri nəticələr artıq dünya elmində əsaslı yer tutmuşdur. Azıx tapıntıları 1981-1982-ci illərdə Parisin «İnsan» muzeyində təşkil olunmuş «Avropanın ilk sakinləri» adlı sərgitdə də nümayiş etdirilmiş və orada həmin düşərgə haqqında elmi məqalə dərc olunmuşdur. 1981-ci ildə Tbilisi şəhərində keçirilən Sovet – Fransa alimlərinin birgə çöl seminarında da Azərbaycan alimlərinin Azıxda apardıqları qazıntıların nəticələri yüksək qiymətləndirilmişdir. Son 40 ildə bir sıra xarici ölkələrin alimləri Azərbaycana gələrək Azıxda aparılan tədqiqat işləri ilə tanış olmuşlar. Beynəlxalq İNTAS – 2000 adlı proqram çərçivəsində Avropa ölkələrindən 32 görkəmli alim Azərbaycanda Azıx, o cümlədən Tağlar paleolit düşərgələrindən tapılmış maddi mədəniyyət qalıqlarını elmi cəhətdən tədqiq etmişlər (4, 13,14).

Azərbaycan ərazisində mustye mədəniyyətinə (100-35 min il əvvəl) aid ən möhtəşəm abidə Tağlar mağara düşərgəsi də Qarabağda, Quruçayın sol sahilində yerləşir. Abidədə XX əsrin 60-80-ci illərində – təxminən 20 ilə yaxın bir müddətdə ardıcıl arxeoloji qazıntılar aparılmış, düşərgədən 7 mindən artıq daş məmulatı və qədim insanların ovladıqları heyvanlara məxsus 20 mindən çox sümük nümunələri aşkar olunmuşdur. Daş məmulatının texniki və tipoloji tədqiqi zamanı paleolit dövrü üçün yeni əmək alətləri qeydə alınmış və onlara Tağlar tipli əmək alətləri adı verilmişdir. Tağlar düşərgəsində çoxlu ocaq laylarının qeydə alınması da tədqiqatçıların diqqətini cəlb etmişdir.

Tağlar çoxtəbəqəli Mustye düşərgəsi Qafqaz və Yaxın Şərq ərazisində yeganə abidədir ki, burada əmək alətlərinin uzunmüddətli inkişafını izləmək mümkündür. Əgər Azıx paleolit düşərgəsində aparılan elmi tədqiqat işləri Azərbaycan ərazisində ibtidai insanların uzun müddət yaşadıqlarını göstərirdisə, Tağlardakı arxeoloji tədqiqatlar neandertal tipli adamların inkişaf etdiyini, müasir insanların ulu əcdadlarının bu ərazidə yaşayıb formalaşdığını elmi əsaslarla təsdiq etdi (1, 67,68; 3, 47). Tanınmış paleolitşünas alim Ə.Cəfərov uzun müddət Tağlar Mustye düşərgəsində apardığı tədqiqat işlərinin nəticələrini bir sıra elmi əsərlərində ətraflı şərh etmiş və beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınmasına nail olmuşdur (17; 2; 3).

Qarabağın adı çəkilən məşhur abidələrindən başqa, bir sıra digər abidələrindən də daş dövrünə aid maddi-mədəniyyət nümunələrinə rast gəlinir. Məsələn, 1983-cü ildə Tərtər rayonunun Borsunlu kəndi ətrafında aparılan tədqiqatlar zamanı erkən tunc dövrünə aid kurqanın torpaq örtüyü altından 40-a yaxın obsidian əmək aləti tapılmışdır. Onların əksəriyyəti paleolitin aşel və mustye mərhələlərinə aiddir (31, 67-72).

Mezolit və neolit dövrünə aid mikrolit alətlərə Qobustan, Damcılı və başqa abidələrlə yanaşı, Azərbaycanın yüksək dağ rayonlarından da təsadüf olunur. Belə ki, 1972-ci ildə Qarabağda Şuşa şəhərinin Daşaltı qayalığı altındakı Şuşa mağarasında tədqiqat aparılarkən mağaranın qarışıq təbəqəsindən neolit dövrünə aid bir neçə mikrolit alət tapılmışdır (9, s.18).

Azərbaycan ərazisində eneolit mədəniyyətinə məxsus yaşayış yerləri, bir qayda olaraq, dağətəyi və düzən yerlərdəki çay sahillərində və ya qədim quru çay vadilərində yerləşmişdir. Belə yaşayış yerləri üçün möhrə və çiy kərpicdən tikilmiş dairəvi, bəzi hallarda isə dördkünc evlər səciyyəvidir.

Qarabağın Quruçay və Köndələnçay vadisindəki ən qədim əkinçilik mədəniyyəti ilə bağlı olan abidələr də eneolit dövrünə aiddir. Bu dövrə aid ilk tapıntılar həmin vadidə yerləşən Azıx və Tağlar daş dövrü düşərgələrinin üst mədəni təbəqələrindən aşkar edilmişdir. Professor Q.İsmayılovun fikrincə, bəhs olunan dövrdə mağaralardan müvəqqəti sığınacaq kimi istifadə olunmuş, əsas yaşayış isə əkinçilik və maldarlıq üçün daha əlverişli olan Köndələnçayın sahil ərazilərindəki açıq yerlərə keçmişdir (10, 10). Buna Füzuli rayonu ərazisindəki Günəştəpə, Qaraköpəktəpə, Kültəpə, Xantəpə və başqa abidələri misal göstərmək olar. Xantəpədə eneolit dövrünə aid 5 metrdən artıq mədəni təbəqə mövcuddur. Buradan əldə olunan tapıntılar arasında gildən düzəldilmiş butə xüsusilə diqqəti cəlb edir. O, boz rəngli, kiçik ölçülü yuvarlaq qabdan ibarətdir. Üzərində od, içərisində isə əridilmiş mis izi qalmışdır. Mis əridilməsində istifadə olunmuş bu əşya bütün Qafqazda ən qədim metaləritmə işini əks etdirən ilk tapıntıdır (9, 29).

Ağdam rayonunda Çalağantəpə və İlanlıtəpə adlı eneolit dövrü abidələrindəki qazıntıların nəticələri mühüm əhəmiyyət kəsb edir. Bu yaşayış yerləri məsafəcə yaxın və oxşar mədəniyyətə mənsub olsalar da memarlıq xüsusiyyətlərinə görə bir-birindən fərqlənirlər. Çalağantəpədə bütün tikiliilərin divarları dairəvi planda bir cərgə kərpicdən hörülmüş, bəzi hallarda daxildən ağardılaraq boya ilə naxışlanmışdır. İlanlıtəpədə isə düz, dairəvi və yarımdairəvi planlı tikintilərə rast gəlinmişdir. Tikililərin döşəmələrinə bəzən boya qatılmış gil suvaq çəkilmişdir (1, 95).

Qarabağ düzənliyində, Ağdam rayonunun Eyvazlı kəndi yaxınlığında yerləşən Leylatəpə yaşayış yerinin memarlıq elementləri, dulus kürələri, eləcə də keramika məmulatı bu ərazidə əsrlərlə davam edən yerli əlamətlərdən tamamilə fərqlənir. Bir sıra faktik dəlillər (iki boğazlı qablar, bogazlarında üfüqi gözlər olan küpələr və s.) Şimali Mesopotamiyanın yaşayış məskənlərində – III Yarımtəpənin Obeyd təbəqəsində, erkən Uruk materiallarında öz analogiyasını tapır (30, 271, 272). Leylatəpə keramikasına əsaslanan İ.Nərimanov qeyd edir ki, «e.ə. IV minilliyin birinci yarısında Azərbaycanda dulusçuluğun yeni mərhələsi başlanır, istehsalatda dulus çarxı tətbiq olunur. Qafqaza bu texniki yeniliyi Ön Asiyadan buraya köçən Obeyd mədəniyyəti qəbilələri gətirir» (11, 19). Bir sıra bəzək əşyaları da (məsələn, firuzə daşından muncuqlar) eneolitin son dövründə Azərbaycan qəbilələrinin Ön Asiyanın qonşu bölgələrinin əhalisi ilə nisbətən intensiv əlaqələrindən xəbər verir. Bəzi qəbirlərdən mindən artıq muncuğun tapılması onların qonşu ölkələrdən mübadilə məqsədilə gətirilməsini söyləməyə əsas verir. Çalağantəpədə bir uşaq qəbirindən tapılan iki mindən artıq muncuğun 1580 ədədi sədəfdən düzəldilmişdir (1, 100).

Qarabağın eneolit dövrü əhalisinin təsərrüfatında əkinçilik əsas yer tuturdu. Bölgə sakinləri süni suvarma əkinçiliyi ilə tanış idilər (32, 173). Toxa əkinçiliyi yük-

sək inkişaf səviyyəsinə çatmışdı. Arxeoloji qazıntılar zamanı xeyli miqdarda biçin alətləri, o cümələdən oraq dişləri tapılmış, sürtkəclərə, dən daşlarına və s. rast gəlinmişdir. Qarabağ bölgəsinin sakinləri buğda və arpanın müxtəlif növlərini yetişdirməklə məşğul olmuşlar (32, 140).

Qarabağ bölgəsi tunc və erkən dəmir dövrü abidələri ilə daha zəngindir. Bu abidələrin böyük bir qrupu Quruçay və Köndələnçay vadisində cəmləşmişdir. Buradakı ilk tunc dövrü yaşayış yerlərinin qalıqlarına əksər hallarda eneolit dövrü abidələri üzərində rast gəlinir. Q.İsmayılov qeyd edir ki, Quruçay və Köndələnçay vadisində aşkar edilən ilk tunc dövrü yaşayış yerləri sayca çox və bir-birinə yaxın olmaqla bu vadinin eramızdan əvvəl III minillikdə Qafqazın ən sıx əhaliyə malik rayonlarından biri olduğunu subut etmişdir. Belə yaşayış yerlərinə Günəştəpə, Xantəpə, Qaraköpəktəpə ilə yanaşı, Şomulutəpə, Uzuntəpə, Meynətəpə kimi onlarca abidə daxildir (10, 17). Maraqlıdır ki, bu abidələrin çoxu qalın təbəqəli, eyni zamanda bir neçə laylıdır. Məsələn, Qaraköpəktəpə yaşayış məskəninin ilk tunc dövrü təbəqəsinin qalınlığı 7 metrə yaxındır. Belə bir vəziyyət, hər şeydən əvvəl, bu yaşayış yerlərinin oturaq həyatla bağlı olduğunu və onlarda məişət və təsərrüfat fəaliyyətinin uzun zaman davam etdiyini göstərir (10, 22). Orta tunc dövründə də Qaraköpəktəpədə həyat intensiv davam etmişdir. Bunu abidənin həmin dövrə aid 3 metr qalınlığındakı mədəni təbəqəsi təsdiq edir. Burada iri qaya parçalarından və çay daşlarından inşa edilmiş möhtəşəm müdafiə divarlarnın qalıqları aşkara çıxarılmışdır. Bu isə e.ə. II minilliyin ortalarında həm tayfalararası toqquşmaların intensivləşməsi, həm də qonşu Şərq ölkələrində meydana çıxan güclü quldar dövlətlərin qarətçi yürüşlərə başlaması ilə əlaqədar ola bilərdi.

Quruçay və Köndələnçay vadisində tunc dövrünün sonu və dəmir dövrünün əvvəllərinə aid Şəkərciktəpə, Zərgərtəpə və başqa abidələr də qeydə alınmış və onlarda ilkin kəşfiyyat qazıntı işləri aparılmışdır (10, 41,42).

Qarabağın tunc dövrü abidələri arasında Ağdam rayonu ərazisində yerləşən Üzərliktəpənin özünəməxsus yeri vardır. Bu yaşayış məskəni təkcə Azərbaycanda deyil, bütün Qafqazda etalon abtdə kimi şöhrət tapmışdır. Dörd hektara yaxın ümumi sahəsi olan abidənin təxminən 500 kv.m. sahəsində arxeoloji qazıntı işləri aparılmışdır. Nəticədə maddi mədəniyyət nümunələri, o cümlədən tikinti qalıqları ilə zəngin 3 m qalınlığında mədəni təbəqə aşkar edilmişdir. Məskənin ətrafına çəkilən müdafiə divarının qalıqlarından bir hissə açılaraq təmizlənmişdir. Uzunluğu 35 m, hündürlüyü 2 m, eni isə 1 m olan bu divar qalığı yeddi cərgə düzülmüş çiy kərpicdən hörülmüşdür. Qafqazın, Ön Asiyanın, eləcə də Cənubi Türkmənistanın oxşar abidələrini müqayisəli şəkildə təhlil edən tədqiqatçı V.Əliyev Üzərliktəpəni erkən şəhər tipli yaşayış məskəni kimi səciyyələndirir (13, 23-25, 48-50).

Müxtəlif istehsal sahələrinin sürətli inkişafı, nəsli tayfa icmaları içərisində mülki təbəqələşmənin dərinləşməsi, varlı tayfa başçıları və əyanların meydana çıxması ibtidai cəmiyyətin final pilləsi olan son tunc və erkən dəmir dövrünün əsas əlamətləri idi. Füzuli rayonu ərazisindəki Qarabulaq nekropolunda hələ XIX əsrin sonlarında A.A.İvanovski tərəfindən açılmış zəngin qəbir abidələri yuxarıda deyilənləri bir daha təsdiq edir. Həmin nekropolda saysız-hesabsız silah nümunələrinə, müxtəlif əmək alətlərinə, nəfis şəkildə hazırlanmış bəzək şeylərinə, gil qablara və s. rast gəlinmişdir (25, 153-164).

Şimali Qarabağ bölgəsində, yəni düzənlik və dağlıq Qarabağın çox hissəsini əhatə edən Qarqarçay və Tərtərçay hövzəsində yerləşən abidələr Qarabağ arxeoloji abidələrinin böyük bir qrupunu təşkil edir. Bu abidələr H.Cəfərovun «Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində» adlı iri həcmli monoqrafiyasında kompleks halda tədqiq edilmişdir. Əsərdə Qarabağın tunc və erkən dəmir dövrü abidələrinin öyrənilmə tarixi ilə yanaşı, müəllifin özü tərəfindən aparılan qazıntıların nəticələri ətraflı işıqlandırılmışdır (5, 6-15).

Qarabağın qəbir abidələri arasında Xocalının qədim qəbiristanlığı xüsusi yer tutur. Bu abidənin elm aləmində tanınmasında 1891-1899-cu illərdə Şuşa realnı məktəbində müəllimlik etmiş alman alimi, pedaqoq və arxeoloqu Emil Reslerin tədqiqatları təqdirəlayiqdir. Xocalı-Gədəbəy arxeoloji mədəniyyətinə aid bir çox abidələrin (Xocalı, Ballıqaya, Balçılı, Quşçu və s.) öyrənilməsi onun adı ilə bağlıdır (7, 180). E.Reslerin Xocalı nekropolunda açdığı qəbirlər arasında 11 saylı qəbir daha çox maraq doğurmuşdur. Yaşlı bir adamın dəfn olunduğu bu daş qutu qəbirdən tariximiz üçün əhəmiyyətli olan xeyli maddi-mədəniyyət nümunələri toplanmışdır. Qəbir avadanlığı içərisində müxtəlif gil qablarla yanaşı tuncdan quş fiquru, bıçaq, bir cüt üzük, qızıldan muncuq, üzəri naxışlı lövhə və əqiqdən muncuq vardır. Əqiq muncuğun üzərində mixi yazı ilə Assur hökmdarı Adadnirarinin adı həkk olunmuşdur. İlk baxışdan E.Resler belə hesab etmişdir ki, muncuğun üzərindəki yazı deyil, sadəcə moabi və ya nəbati yazını xatırladan işarələrdir. Akademik İ.Meşşaninov bu fikrin səhv olduğunu göstərmiş və həmin yazı haqqında xüsusi məqalələrlə çıxış etmişdir (28, 49-51; 29, s.52-57). Sonralar Xocalı muncuğu ilə bağlı bir sıra alimlər, o cümlədən Xocalıda arxeoloji qazıntılar aparmış İ.Cəfərzadə öz mülahizələrini söyləmişlər (24, 15-26; 35, 15-23).

XX əsrin 80-ci illərində H.Cəfərov da Xocalı kurqanlarını tədqiq etmişdir. O, həmçinin Qarqarçay və Tərtərçay hövzəsində bir sıra yeni arxeoloji abidə qeydə almış və onlardan bəzilərində qazıntı işləri aparmışdır. Bu abidələrdən - Bəyimsarov, Borsunlu (Tərtər), Sarıçoban (Ağdam) və başqa kurqanlardan əldə olunan materiallar Azərbaycan arxeologiyasında yeni səhifələr açmışdır (18, 433,434; 19, 418; 20; 21, 155-170; 22, 65-67). Maraqlıdır ki, həm bu kurqanlarda, həm də Qarabağın digər qəbir abidələrində (Xocalı, Dovşanlı və b.) qəbir avadanlığı arasında çoxlu və müxtəlif silah nümunələri vardır. Belə arxeoloji materialların zənginliyi qədim Qarabağda hərbi işin təşkili, hərbi dəstələrin növləri, döyüşçülərin silahla təchizatı və s. haqqında xüsusi tədqiqat aparmağa zəmin yaratmışdır (23).

1989-cu ildə Azərbaycan EA Arxeologiya və Etnoqrafiya institutu Mil-Qarabağ arxeoloji ekspedisiyasının tərkibində bu sətirlərin müəllifinin rəhbərliyi ilə yeni – III dəstə yaradılmışdır. Dəstənin qarşısına Azərbaycanın cənub-qərb bölgəsinin – Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ərazisindəki arxeoloji abidələri tədqiq edib öyrənmək məqsədi qoyulmuşdur. Bölgənin arxeoloji xəritəsini tərtib etməyi ilkin vəzifə kimi planlaşdıran dəstə həmin ildə Cəbrayıl rayonu ərazisində fəaliyyətə başlamışdır. Kəşfiyyat nəticəsində müxtəlif tarixi dövrlərə aid 20-dən artıq yaşayış məskəni, nekropol, qala, türbə, orta əsr qəbiristanlığı qeydə alınmış, onların bəzilərində ilkin yoxlama qazıntı işləri aparılmışdır. Karxulu və Torağaytəpə ilk tunc dövrü yaşayış yerlərindən, Niftalılar, Karxulu və digər nekropollardan əldə olunan arxeoloji materiallar bütvlükdə Qarabağın digər abidələri ilə oxşarlıq təşkil edir ( 6, 81-87; 8). Təəssüf ki, Qarabağda hərbi əməliyyatların başlanması və erməni işğalçıla-

rı tərəfindən qeyd olunan rayonların zəbt olunması çöl tədqiqatlarını davam etdirməyə imkan verməmişdir.

Qarabağın tunc və ilk dəmir dövrü abidələrindən tez-tez rast gəlinən silah nümunələri – xəncər, bıçaq, nizə ucluğu və s. göstərir ki, əkinçilik, maldarlıq və sənətkarlıq sahələri ilə yanaşı hərb sənəti də Qarabağ əhalisinin məşğuliyyət sahələrindən olmuşdur. Qarabağın əlverişli təbii-coğrafi şəraiti, zəngin nemətləri zaman-zaman qonşu və yadelli tayfaları tamahlandırmış və buna görə də yerli əhali əsrlər boyu səksəkəli vəziyyətdə əlində silah öz yurd-yuvasını qorumaq məcburiyyətində qalmışdır. Minilliklərin güzgüsü kimi abidələrdə yaşayan tarix bu günki nəsillərə qan yaddaşını unutmamağı, düşmənə güzəştə getməməyi və sayıqlığı itirməməyi tövsiyyə edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

### Azərbaycan dilində

1. Azərbaycan tarixi. Yeddi cilddə, I cild. Bakı, 1998.
2. Cəfərov Ə. Quruçay dərəsində. Bakı, 1990.
3. Cəfərov Ə. İnsanlığın səhəri. Bakı, 1994.
4. Cəfərov Ə. Azıx dünya arxeologiyasında. Akademik İ.Əliyevin 80 illiyinə həsr olunmuş Elmi konfransın materialları. Bakı, 2004.
5. Cəfərov H. Azərbaycan e.ə. IV minilliyin axırı – I minilliyin əvvəllərində. Bakı, 2000.
6. Əliyev T.R. Azərbaycanın cənub-qərb bölgəsinin arxeoloji tədqiqinə dair. «Azərbaycan arxeologiyası və Etnoqrafiyası» jurn., 2003, № 1.
7. Əliyev T.R. Qarabağ Azərbaycanın qədim sivilizasiya mərkəzi kimi. «Qarabağ dünən, bu gün və sabah» 4-cü Ümumrespublika konfransının materialları. Bakı, 2005.
8. Əliyev T.R. Mil-Qarabağ arxeoloji ekspedisiyası III dəstəsinin 1989-cu il çöl-tədqiqatlarının hesabatı. Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya institutunun elmi arxivi, H-516.
9. Hüseynov M.M., İsmayılov Q.S., Quliyev N.M. Azərbaycanın arxeoloji abidələri. Bakı, 1981.
10. İsmayılov Q. Quruçay və Köndələnçay vadisində qədim mədəniyyət izləri. Bakı, 1981.
11. Nərimanov İ.H. Azərbaycanda dulusçuluğun erkən dövr tarixindən. S.M.Qazıyevin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi sessiyanın materialları. Bakı, 1994.
12. Rəsuloğlu (Əliyev) T. Günəş dənizdən doğur. Bakı, 1993.

### Rus dilində

13. Алиев В. Культура эпохи средней бронзы Азербайджана. Баку, 1991.
14. Алиев Играр. Карабах в древности. –Известия АН Азербайджанской ССР. Серия истории, философии и права. 1988, № 3.
15. Гусейнов М.М. Древний палеолит Азербайджана. Баку, 1985.

16.Гусейнов М.М., Джафаров А.К. Палеолит Азербайджана. Баку, 1986.

17.Джафаров А.К. Мустьерские культуры Азербайджана. Баку, 1983.

18.Джафаров Г.Ф. Исследования в Карабахе. АО 1982 г. - М., 1984.

19.Джафаров Г.Ф. Исследования в Ходжалах. АО 1984 г. –М., 1986.

20.Джафаров Г.Ф. Борсунлу–погребение племенного вождя. Баку,1986.

21.Джафаров Г.Ф. Курган у селения Беимсаров в Азербайджане. Российская археология, 1992, № 2.

22.Джафаров Г.Ф. Археологические памятники эпохи поздней бронзы предгорного и равниннего Карабаха. Международная научная конференция «Археолгия и Этнография Кавказа». Баку, 2000.

23.Джафарова Д.Г. Оружие племен Карабаха в эпоху поздней бронзы и раннего железа. Автореф. канд. диссертации. Баку, 2007.

24.Джафарзаде И.М. Ходжалинская экспедиция. Земляной курган № 5. Изв. Аз. Филиал АН СССР,1941, № 2.

25.Ивановский А.А. По Закавказью. МАК, 1911, вып. VI.

26.Иессен А.А.. Из исторического прошлого Мильско-Карабахской степи. МИА 1965, № 125.

27.Исмаилов Г.С. Новые данные о Гарабулагском древнем могильнике. – Доклады АН Азеб. ССР, 1971, № 11-12.

28.Мещанинов И.И. Ассирийская вотивная бусина из Азербайджана. – ИООИА, Баку, 1926, вып. 2.

29.Мещанинов И.И. Бусина с клинописью из Ходжалинского могильника. –ИООИА, Баку, 1926. вып.2.

30.Нариманов И.Г. Обейдские племена Месопотамии в Азербайджане. Всесоюзная археологическая конференция «Достижения Советской археологии в XI пятилетке». Тезисы докладов. Баку, 1985.

31.Нариманов И.Г., Джафаров Г.Ф. Палеолитические находки из Борсунлу. –КСИА, 1986, вып. 192.

32.Нариманов И.Г. Культура древнейшего земледельческого-скотоводческого населения Азербайджана. Баку, 1987.

33.Нариманов И.Г., Алиев Н.Г. Прогресс и взаимосвязи раннеземледельческих культур Азербайджана. Технологический и культурный прогресс в ранземледеьческую эпоху. Тезис докладов. Ашхабад, 1987.

34.Палеолит СССР. М., 1984.

35.Пассек Т.С., Латынин Б.А. Ходжалинский курган № 11. –ИООИА, 1926, №2.

36.Энеолит СССР. М.,1982.

**Aliev T.R.**

## THE ARCHEOLOGICAL MONUMENTS OF GARABAGH (From the ancient cycle to the beginning of Achaemenid period)

***S U M M A R U***

This article is about the studyings and investigation history of monuments of Garabagh.

The archeological monuments reveaked in Garabagh belong to different hictorical periods. Most of them are investigated good enough. Springing up some of archeological cultures like. Gurutchay-Kondelentchay, Neolit-Eneolit, Kur-Araz and Khodjali-Gadabay are closely related with the Mil-Garabagh region. The heritage betwin theese cultures is closely observing.

Some popular monument of Garabagh like Azikh, Taghlar, Garakepektepe, Keila-tepe, Uzerliktepe and the others are accepted like valuable material anl cultural heritage of Azerbaijanian nation by difterent foreigh investigators.

**Алиев Т.Р.**

## АРХЕОЛОГИЧЕСКИЕ ПАМЯТНИКИ КАРАБАХА ( С древнейщих времен до раннеахеменидского периода)

***Р Е З Ю М Е***

Статья посвящена памятникам Карабаха, их истории изучения и исследования.

Археологические памятники обнаруженные в Карабахе относятся к разным историческим периодам. В некрторых из них проведены достаточно масштабное исслндование. Формирование таких археологических культур, как Куручай-Кенделенчайский, Неолито-Энеолитический, Куро-Аразский и Ходжалы-Кедабекский тесно связано с Мильско-Карабахском регионам. Преемство среди этих культур четко прослеживается.

Некоторые известные памятники Карабаха – Азых, Тагла, Гаракепектепе, Лейлатепе, Узерликтепе и др. давно восприняты исследователями как ценнейщее материально-культурное наследие азербайджанского народа.